# 2018-ci il, birinci rüb: Qəbələdə bütün sahələrdə uğurlu inkişaf var

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə).

ci il tarixli, 2754 nömrəli Sərəncamı əsasında "Qəbələ rayonunun Mıxlıqovaq kəndində içməli su təchizatı sisteminin qurulması" layihəsinin, 12 mart 2018-ci il tarixli 3781 nömrəli Sərəncamı əsasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi layihəsnin icrası ilə bağlı rayonun 8 (Çarxana, Aydınqışlaq, Xırxatala, Tikanlı, Yenikənd, Tövlə, Uludaş) kəndinin və Bum qəsəbəsinin hər birinə 1 ədəd subartezian quyusunun qazılması, 5 mart 2018-ci il tarixli 3749 nömrəli Sərəncamı əsasında rayonun Mıxlıqovaq və Kötüklü kəndlərində qazlaşma işlərinin aparılması və 22 yanvar 2018-ci il tarixli, 3583 nömrəli Sərəncamı əsasında 43 km uzunluqda Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlanılması nəzərdə tutulmuşdur.

2018-ci ilin birinci rübü ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, fevral ayının 14-də VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər etmişdir. Gəzinti zamanı Nic qəsəbəsindəki "Cotari" Alban-Udi kilsəsi və qəsəbədə yaşayan udi xalqının tarixi ilə bağlı məlumatlar tələbələrin diqqətinə çatdırılmışdır.

Eləcə də mart ayının 6-da Almaniya Federativ Respublikasının səfiri cənab Mixael Kindsqrab tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişdir. Səfər çərçivəsində səfir Mixael Kindsqrab rayonun tarixi-mədəni yerləri və sənaye müəssisələri ilə yaxından tanış olmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

Qəbələ Rayon Təhsil şöbəsi 2017-2018-ci dərs ilinin birinci yarımilini yüksək nəticələrlə başa vurmuşdur. 2017-2018-ci dərs ilindən başlayaraq məktəb yaşlı uşaqların 65 faiz-i hazırlıq qruplarına qəbul olunmuşlar. 2018-2019-cu dərs ilində isə 2018-ci ilin 31 dekabrınadək 5 yaşı tamam olacaq uşaqların 75 faizinin hazırlıq qruplarına qəbul edilməsi nəzərdə tutulmuşdur. Bununla bağlı məktəblərdə hazırlıq işləri görülməklə yanaşı, həmin siniflərdə dərs deyəcək müəllimlərlə 24 fevral 2018-ci il tarixindən başlayaraq ayda bir dəfə olmaqla dörd ay müddətində seminar- məşğələlər keçirilməsi təşkil olunmuşdur.

Ölkəmizdə 18 ili əhatə edən bir dövrdə aparılan "Təhsil islahatı"ının mühüm və aparıcı tərkib hissələrindən biri "Milli Kurikulum"un həyata keçirilməsidir. 2017-2018-ci dərs ilində tam orta təhsil pilləsində X sinifdə tədris kurikulum üzrə aparılır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Ən yaxşı tədqimat" müsabiqəsinin rayon turunda şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Tünzalə Rzayeva qalib gəlmiş və respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Rayonun bütün təhsil müəssisələrində 20 Yanvar, Xocalı faciəsinə və 31 Mart Azərbaycanlıların Soyqırımının 100 illiyinə həsr olunmuş tədbirlər keçirilmişdir.

Rayonun ictimai-siyasi həyatının mühüm sahəsi olan tolerantlıq, dini durum və dini ayinlərin icrası nəzarətdə saxlanılır. Rayonumuzda yaşayan etnik xalqlar öz adət-ənənələrinin, milli mədəniyyətlərinin, dillərinin qorunması, inkişaf etdirilməsi istiqamətində fəal mövqe nümayiş etdirir, biri-digərinə bərabər hüquqlu vətəndaş kimi qarşılıqlı hörmət münasibəti bəsləyir. Həyata keçirilən abadlıq-quruculuq işləri milli azlıqların yaşadığı qəsəbə və kəndləri də əhatə edərək, onların bu işlərdən bəhrələnməsini təmin edir.

Qəbələ rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələri tərəfindən 2018-ci ilin birinci rübü ərzində tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir cox maraqlı mədəni-kütləvi bədii proqramlar hazırlanmışdır.

Bakıda keçirilən ümumrespublika Novruz şənliyində Qəbələ rayonunda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarını özündə əks etdirən stend təşkil olunmuş, kulinariya məhsulları və xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilmişdir.

Rayonumuzda 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 7 otel beşulduzludur. Burada yerləşən mehmanxana tipli obyektlərdə bir gündə 2000-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Son 3 ayda Qəbələyə 62 min nəfərdən çox turist gəlmişdir.

Rayonumuzda 23 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Bu müddət ərzində uşaq bağçalarında mövcud maddi texniki vəziyyətin yaxşılaşdırılması məqsədilə xeyli iş görülmüş və bu istiqamətdə işlər davam etdirilməkdədir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 2018-ci ilin 3 ayı ərzində stasionar xəstələrin sayı 626 nəfər, cərrahi əməliyyatların sayı 58 olmuşdur.

Bu müddət ərzində 280 doğuş baş vermiş, ev doğuşu olmamışdır. Ambulator müraciət edən xəstələrin sayı 51600 nəfər təşkil etmişdir.

Xəstəxanada məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə birinci rübdə 1419 nəfər planlaşdırılıb. Onlardan 2018-ci ilin birinci rübü ərzində 588 nəfər müayinəyə cəlb edilmişdir. Müayinəyə cəlb edilmiş obliqat qrupun 301 nəfəri təhsil, 255 nəfəri səhiyyə, 32 nəfəri isə digər sahələrdə işləyənlərdir.

Bu müddət ərzində Qəbələ Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 5549, endoskopiya kabinetində müayinələrin sayı 642, EKQ müayinələrinin sayı 1170, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 143, stasionar şöbəyə daxil olan xəstələrin sayı 324, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 308 olmuşdur. Hemodializ şöbəsində 54 xəstədə 1787 hemodializ seansı aparılmışdır. Şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 4174, kompüter tomoqrafik müayinələrin sayı 381, rentgen müayinələrin sayı 5418, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 1285 olmuşdur. Kliniki laboratoriyada 2966 xəstədə 117755 müayinə aparılmışdır.

Ölkə Prezidentinin tapşırığı əsasında Respublikada 18 yaşından yuxarı olan əhalinin 10 fevral tarixdən 15 may tarixədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilir. Bu məqsədlə tərtib edilmiş qrafikə əsasən mərkəzi xəstəxanada və müalicə diaqnostika mərkəzində əhali müayinələrə cəlb edilir. Eyni zamanda rayonun bütün qəsəbə və kəndlərində həkim briqadaları tərəfindən qrafikə uyğun olaraq ilkin müayinələr aparılmaqla dərin tibbi müayinəyə daha çox ehtiyacı olanlar aşkar edilərək müayinələrə göndərilirlər. 15 fevral tarixindən etibarən mərkəzi xəstəxanada həmçinin periferiyada fəaliyyət göstərən həkim briqadaları tərəfindən 18 yaşından yuxarı 42200 nəfər müayinə edilmişdir. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laboratoriya kabinetləri işitrak etmişdir. Müayinələrin nəticəsinə əsasən 1454 nəfərə ambulator müalicə təyin edilmiş, 202 nəfər stasionar müalicəsinə cəlb olunmuş, 105 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir. Hazırda tibbi müayinə işləri davam etdirilir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər həyata keçirilmişdir.

Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında difteriya, göyöskürək, tetanus, qızılça, parotit, məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

2018-ci ilin birinci rübü ərzində rayonun yaşayış məntəqələri üzrə parazitar xəstəliklərə qarşı profilaktik tədbirlər aparmaq məqsədilə 304 nəfərdən qalın qan yaxması götürülərək parazitoloji labarotoriyada müayinə edilmiş, onlarda malyariya xəstəliyi aşkar olunmamışdır.

Rayon gənclər və idman idarəsi tərəfindən 2018-ci ilin birinci rübü ərzində 22 tədbir həyata keçirilmişdir. Bunlardan 12 tədbir gənclərlə iş sahəsini, 10 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Həyata keçirilən tədbirlərin mahiyyət baxımından əhəmiyyəti dövlət siyasətinin düzgün təbliğinin təşkili, hüquqi maarifləndirmə, cinayətkarlıq hallarına qarşı mübarizə, vətənpərvərlik tərbiyəsi işinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin edilməsi, dərəcəli idmançıların hazırlanmasından ibarətdir.

Keçirilən rayon miqyaslı yarışlarda mükafata layiq yer tutan komandalar və idmançılar gənclər və idman idarəsi tərəfindən fəxri fərmanlar və xatirə hədiyyələri ilə mükafatlandırılmışdır.

2018-ci ilin birinci rübü ərzində keçirilən respublika tədbirlərində gənclər və idman sahəsində nümayəndələrin iştirakı təmin olunmuş, Aydan Hüseynzadə şahmat məsələlərinin əyani həlli üzrə 14-cü beynəlxalq həlletmə yarışında III yerə, Cavid Əzizov və Əhmədiyyə Cəfərov gənclər arasında taekvondo idman növü üzrə keçirilən ölkə birinciliyində III yerə, Namiq Yaralıyev isə yeniyetmələr arasında keçirilən boks üzrə Azərbaycan birinciliyində III yerə layiq görülmüşlər.

Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən rüb ərzində 245 nəfər gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 121 nəfər təşkil etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayından 21 nəfəri ödənişli əsasla, 100 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

**Hörmətli tədbir iştirakçıları!**

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 11 buraxılış qrupunda nəzəri fənlərdən daxili imtahanlar keçirilmiş və məktəbin 206 nəfər şagirdi bu imtahanlardan müvəffəq qiymətlər almışlar. Hazırda isə modul tipli təhsil proqramları ilə təhsil alan şagirdlər modullar üzrə rayonumuzun iri aqrar təsərrüfatlarında istehsalat təcrübəsi keçirlər.

Mərkəzdə pilot layihə olaraq, 3 yeni ixtisas- "Aqroservis mütəxəssisi", "Bitkiçilik mütəxəssisi" və "Heyvandarlıq mütəxəssisi" ixtisasları üzrə ümumi orta təhsil bazasından şagird qəbulu aparılmışdır. Həmin ixtisaslar üzrə tədris prosesi modul təhsil proqramları üzrə keçirilir. Hazırda həmin qruplarda Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri tədris aparırlar.

Tədris mərkəzinin turizm korpusunda 173 şagird təhsil alır.

Son zamanlar təhsil sahəsində baş vermiş yeniliklər bir daha göstərir ki, peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixti-

(Ardı 6-cı səhifədə).